AZAD ŞƏRİF

# XX ƏSR AZƏRBAYCANININ YARADICI NƏSİLLƏRİ

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin hədiyyəsi

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası

BAKI - 2007

# MUSİQİNİN SEÇDİYİ NƏSİL

## *VƏ YA ADIGÖZƏLOVLARIN ECAZKAR SƏNƏTİ*



**Azərbaycanın əməkdar artisti Zülfi Adıgözəlov** klassik muğam məktəbimizin görkəmli nümayəndəsidir.

1927-ci ildə Şuşada düzənlənən muğam konsertlərindən birində Zülfi Adıgözəlovun ifasını muğam sənətinin ustası, görkəmli xanəndə Cabbar Qaryağdıoğlu eşidir. Məhz xanəndənin dəvəti ilə Zülfi Bakıya gəlir və burada Üzeyir Hacıbəyov qarşısında imtahandan uğurla çıxır. Bundan sonra Z.Adıgözəlovu filarmoniyaya işə qəbul edirlər və bu musiqi ocağı onun üçün əsl məktəb olur. Burada o, Cabbar Qaryağdıoğlu, Qurban Pirimov, Seyid Şuşinski kimi ustad sənətkarlardan xanəndəlik sənətinin incəliklərini və sirlərini öyrənir.

Zülfi Adıgözəlovun repertuarı həddən ziyadə geniş və rəngarəng idi. O, demək olar ki, bütün muğamları ifa edirdi, amma Zülfi Adıgözəlov milli musiqi tariximizə daha çox «Rast» və «Segah» muğamlarının ən mahir ifaçılarından biri kimi düşüb. Xalq mahnıları və təsniflər onun ifasında xüsusilə ecazkar səslənirdi.

Zülfi Adıgözəlov həm də gözəl pedaqoq idi. O, bir müəllim kimi bir-birindən istedadlı çoxlu xanəndələr ərsəyə gətirib. Xalq artistləri Əbülfət Əliyev, Əlibaba Məmmədov və Tələt Qasımov özlərini Zülfi Adıgözəlov məktəbinin davamçıları hesab edirlər.

**Zülfi Adıgözəlovun oğlu, Azərbaycanın xalq artisti, Dövlət mükafatı laureatı Vasif Adıgözəlov** ölkəmizin bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsidir.

Təbiət tərəfindən Vasif Adıgözəlova bəxş edilən fitri istedad, əsrlər boyu Qafqazın musiqi beşiyi sayılan Qarabağın təkrarolunmaz mədəni mühitində püxtələşib, inkişaf edib.

1953-cü ildə V.Adıgözəlov Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq sinfinə daxil olur. Burada o, dünya şöhrətli bəstəkarımız, SSRİ xalq artisti Qara Qarayevin sinfində oxumağa başlayır. Q.Qarayevin yanında təhsil almaq V.Adıgözəlov üçün bir dönüş anı



olur. O, burada dünya musiqi mədəniyyətinin ali zirvələrinə yiyələnməklə yanaşı, bəstəkarlıq sənətinin incəliklərinə də bələd olur. Ümumilikdə, Vasif Adıgözəlov konservatoriyanın iki fakültəsini (bəstəkarlıq və fortepiano) bitirib.

Bəstəkarlıq istedadı, pianoçu qabiliyyəti və xalq musiqisinə dərindən bələd olmaq - bütün bu xüsusiyyətlər V.Adıgözəlovun gələcək yaradıcılığının təməlini təşkil edib.

V.Adıgözəlov müxtəlif illərdə Televiziya və Radio Verilişləri Komitəsində baş redaktor, M.Maqomayev adına Filarmoniyada baş musiqi redaktoru olub. O, 10 il ərzində Azərbaycan Dövlət mahnı və rəqs ansamblının bədii rəhbəri, eləcə də A.Zeynallı adına Bakı Musiqi Texnikumunun direktoru vəzifələrində çalışıb. 1972-ci ildən Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətə başlayan V.Adıgözəlov 1995-ci ildən bu təhsil ocağında «Xor dirijorluğu» kafedrasına rəhbərlik etməyə başlayıb. 1990-cı ildən ömrünün sonunadək isə Vasif Adıgözəlov Azərbaycan Bəstəkarlar İttifaqının İdarə Heyətinin I katibi olub. V.Adıgözəlov «Ölülər» adlı ilk operasını 1963-cü ildə, 28 yaşında yazmışdı. Və elə bu əsəri ilə də o, bu janrda ciddi bir musiqiçi kimi özünü tanıda bilmişdi. Aradan 40 il ötdükdən sonra bəstəkar yenidən bu janra üz tutaraq «Natəvan» operasını yaradır və bu əsər respublikamızın musiqi həyatında əlamətdar hadisəyə çevrilir.

V.Adıgözəlovun simfonik yaradıcılığı bəstəkarın musiqi təxəyyülünün növbəti qatını təşkil edir. O, 4 simfonik poemanın («Qəhrəmanlıq», «Afrika mübarizə aparır», «Bayram üvertürası», «Etaplar»), fortepiano ilə orkestr üçün 4 konsertin, skripka üçün konsertin, violençellə orkestr üçün konsertin müəllifidir. Onun simfonik musiqisi qeyri-adi bəstəkarlıq təxəyyülü və özünəməxsus musiqi dili ilə hamını məftun edir.

V.Adıgözəlovun kantata-oratoriya yaradıcılığı bəstəkarın yaradıcılıq imkanlarının bitib-tükənməzliyinin bariz sübutudur. «Odlar yurdu», «Qarabağ şikəstəsi», «Çanaqqala-1915», «Qəm karvanı» oratoriyaları, «Novruzum», «Təntənəli kantata» kantataları Azərbaycan musiqisinin bu janrlarda qələmə alınmış ən yaxşı əsərlər sırasındadır.

Bəstəkarın yaradıcılığında musiqi janrı xüsusi yer tutur. Bu janra yaradıcılığı ərzində mütəmadi olaraq müraciət edən V.Adıgözəlov bir sıra təkrarolunmaz musiqi parçaları yaratmağa nail olub: «Qərənfil», «Bakı haqqında mahnı», «Yeddi çinar», «Şuşa laylası» və digər bir-birindən gözəl mahnılar məhz Vasif Adıgözəlovun istedadının məhsuludur. V.Adıgözəlovun yazdığı mahnılar onu dinləyən hər kəsin ürəyinə yol tapıb. Onun bir sıra bədii filmlərə - «Şərikli çörək», «Xidmət lifti», «Kişi sözü» və digərlərinə yazdığı mahnılar da xalq arasında böyük kütləvilik qazanıb.

Bu gün dünyanın bir çox tanınmış dirijorları və sənətkarları Vasif Adıgözəlovun əsərlərinə müraciət edir, onun yazdığı əsərlər ən mötəbər konsert zallarında səsləndirilir.

**Zülfi Adıgözəlovun digər oğlu Azərbaycanın əməkdar incəsənət xadimi, istedadlı skripkaçı, müğənni və pedaqoq Rauf Adıgözəlov** ölkəmizin musiqi sənətinin görkəmli nümayəndələrindən hesab olunur.

Rauf Adıgözəlov 1958-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına daxil olub. Hələ tələbə olarkən o, gənc ifaçıların Zaqafqaziya müsabiqəsində iştirak edərək diploma layiq görülmüşdü. Və burada gənc skripkaçının istedadı və ustalığı müsabiqənin münsiflər heyətinin üzvü, Moskva Konservatoriyasının professoru B.Bondarenkonun diqqətini özünə çəkir. B.Bondarenko Raufa təhsilini Moskvada davam etdirməyi təklif edir.



1960-cı ildən Rauf P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasında professor D.M.Tsiqanovun sinfində təhsil almağa başlayır. Konservatoriyanı bitirdikdən sonra R.Adıgözəlov Moskvada işləməyə başlayır. Ancaq, burada qarşısında açılan böyük perspektivlərə baxmayaraq o, cəmi iki il sonra vətənə, Bakıya dönür. Bakıda dərhal Niyazinin rəhbərlik etdiyi Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrində və N.Rzayevin başçılıq etdiyi Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestrində işə başlayır.

Ötən əsrin 70-ci illərinin əvvəllərində isə gənc skripkaçının istedadı və qabiliyyəti onun pedaqoji fəaliyyətə dəvət edilməsinə əsas olur. R.Adıgözəlovu Azərbaycan Dövlət Konservatoriyasının «Kamera ansamblı» kafedrasına işə dəvət edirlər.

Elə həmin illər Rauf Adıgözəlov vokal sənətinə aludə olur və S.Rüstəmovun rəhbərliyi altında Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Xalq çalğı alətləri orkestri ilə sıx əməkdaşlığa başlayır. R.Adıgözəlov həddən artıq mülayim, cəlbedici tembrə malik idi. O, lirik xalq mahnılarını, eləcə də dərin mənalı romansları çox böyük ustalıqla ifa edirdi. Onun yaradıcılığında Ü.Hacıbəyovun «Sənsiz» və «Sevgili canan» romans-qəzəlləri, eləcə də T.Quliyev, S.Ələsgərov, Ş.Axundova, V.Adıgözəlov, T.Bakıxanov və digərlərinin mahnıları, romansları xüsusi yer tutur. Yüksək səhnə mədəniyyəti və sözün əsl mənasında bir musiqiçi kimi böyük istedadı sayəsində Rauf Adıgözəlov qısa zaman ərzində Azərbaycan xalqının rəğbətini qazana bilmişdi.

1998-ci ildən ömrünün sonuna qədər Rauf müəllim skripka sinfində dərs deyib.

**Yalçın Vasif oğlu Adıgözəlov** Azərbaycanın məşhur musiqi sülaləsinin üçüncü nəslinin nümayəndəsidir. Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının fortepiano fakültəsini bitirdikdən sonra Yalçın təhsilini Sankt-Peterburq Konservatoriyasının opera-simfoniya dirijorluğu fakültəsində davam etdirib.

1989-cu ildən etibarən isə Y.Adıgözəlov Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin və Kamera orkestrinin bədii rəhbəridir. Bundan əlavə o, iki il ərzində Vyananın Təsviri İncəsənət və Musiqi Akademiyasında da təcrübə keçib. 1991-ci ildən 1998-ci ilə qədər Yalçın Adıgözəlov Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, eyni zamanda, 1991-1992-ci illərdə o, Avstriya hökuməti ilə birgə təşkil olunan «Motsart festivalları»nın bədii rəhbəri olub.

1993-cü ildə Y.Adıgözəlov «Humay» mükafatının laureatı olur və «İlin ən yaxşı dirijoru» adına layiq görülüb. 2000-ci ildən etibarən isə Yalçın Adıgözəlov Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dirijorudur.

Y.Adıgözəlov İstanbul Dövlət Operasında Minkusun «Don Kixot»una, Sen-Sansın «Samson və Dalila», Puççininin «Madam Baterflyay» və Arif Məlikovun «Məhəbbət əfsanəsi»nə quruluş verib. Rejissor D.Bertmanla birgə Borodinin «Knyaz İqor» operasına verilən quruluş isə Türkiyənin mədəni həyatında əlamətdar hadisəyə çevrilib. 2003-cü ildə keçirilən Beynəlxalq Opera festivalı da məhz bu tamaşa ilə açılıb.

2002-ci ildən o, Moskvadakı «Qelikon-Opera» ilə sıx əməkdaşlıq edir. Y.Adıgözəlov burada «Yevgeni Onegin», «Karmen» və «Yalançı bağban qadın» tamaşalarına dirijorluq edir. Sənətçi Rusiya, Türkiyə, ABŞ, İspaniya, Avstriya, Belçika, Rumıniya və bir sıra digər ölkələrin aparıcı orkestləri, o cümlədən M.Rostropoviç, S.Stajler, D.Koqan kimi dünya şöhrətli sənətkarlarla birgə çıxışlar edib. Həmçinin, artıq uzun illərdir ki, o, Bakı Musiqi Akademiyasının dirijorluq kafedrasının professorudur.